

**Sehran ALLAHVERDİ**

## YALANÇI ŞUŞAM

Səndən xəbərsizik, gör neçə ildi,
Gözlərin yollara dikili qalıb.
Qaçıb gələrdinmi ayağın olsa,
Qolların qoynunda bükülü qalıb.

Bəlkə, ayağını özün kəsmisən,
Atıb gəlməyəsən, bezib ağrıdan.
Bizim yollarımız kəsilməyib ki...
Kəsik ayaqlardı ürək ağrıdan.

Ayaqlar kəsildi, cığırlar itdi,
İtmiş cığırlarla qalandı Şuşam.
Ayağın olsaydı, yenə gəlməzdin,
Yalandı, yalandı, yalandı, Şuşam.

## 27-ci QAR QIZ

köhnə ilin son günləri...
bir addımlıqdadı Yeni il.
atəşfəşanlıq gözlənilir,
hər il olduğu kimi.
hələliksə
atəşkəs üşüdür səngərləri.

yəqin, qar yağır indi oralara,
qanlı küçələrə,
damsız evlərə,
lütlənmiş ağaclara.
qar yağır indi
dözüb qalmış,
budağından qopmamış yarpaqlara da,
işğalda olan torpaqlara da.

yenə
namusagir olub gəlir Yeni il,
qardan ağ tutub üzünə də.
axı o gələndə hər yerə gəlməlidi,
səngərin o üzünə də.

gəlir...
yenə qoca, xəstə şaxta babasıyla,
göyçək, bakirə qar qızıyla gəlir.
bir igidin ömrünə
göz yaşını silə-silə gəlir.
31-i saat 24:00-da əsir düşəcəyini
bilə-bilə gəlir.

yenə Qarabağımız üşüyəcək...
27-ci qar qızımız əsir düşəcək.

**QADIN**

Sənin də
çaşqınlığını ələ verdi
"namərd" gözlərin,
mərd qadın.

Bir baxışdan ömrünə
günəşin doğa biləcəyini də,
çox yox,
bircə dəqiqə sonra
bütün keçmişini unudub
şaqqanaq çəkib güləcəyini də...

Satdı səni gözlərin, qadın.
Gözünün içində
uşaqlıqda qurduğun evciyin
böyüyüb həyət-baca olmuşdu,
şüşə bəbəkli gəlinciyin
yalançı səslə ağlamırdı ta,
gözü gerçək dolmuşdu.

Bir əks cinsli oyuncağa
tovlanmışdı, bəlkə də,
ovlanmışdı, bəlkə də...

Görürsən,
hər şeyin əks cinsi var,
hətta kəlmələrin də...
Bir şey salım yadına,
"ovçu"  kişiyə aid,
"ov"  kəlməsi qadına.

Gözlər də ovçular kimi
namərd olurmuş, demə...
Xəyallar qırılırmış
şüşə bəbək dolanda,
bir ov qəşəng,
ovçu namərd olanda.

Səni baxışların ələ verdi,
mərd qadın,
kədər qadın,
dərd qadın.
Namərd ovçu hardan anlasın ki,
sənin gözündən yağan
ehtiras yox,
sevdiyin kişiyə
ona bənzər oğul doğmaq istəyi...
Nə qansın ki,
xoşbəxtlikdən
süstləşmiş  ovcundan düşən
bütün xəyanətləri
yumub boğmaq istəyi.

Səni gözlərin ələ verdi,
nə qoyaq ki adını,
bəxt,
tale,
qədər,
şans...
Bilmirəm ki, hansı gerçək, hansı yox.
Bir şey dəqiq,
nə yazıq ki, ovun ovçu
seçməyə heç şansı yox.

Sevgi,
istək,
alışma
bir talemi, bir qədərmi, görəsən...
Bu ara düşünürəm,
sevgidən doğulan uşaqların sayı
nə qədərdir, görəsən?..

**PAYIZ, DARIXMAQ…**

Payızın göz yaşları
Tabloları naxışlar…
Hər şey ayrılıq dadar,
Kətan, fırça, naxışlar.

Kətan qandı, ayrılıq!
Fırçam yandı, ayrılıq!
Bəlkə, qandın, ayrılıq…
Birimizi bağışla!

Gəl, inanma nağıla di…
Bu tablom da ağladı.
Son günümüz ağladı,
İslatdılar yağışlar.